● İstedadlar

# "Mahnılarımı hərbçilərə minnətdarlıq hissləri ilə oxuyuram"

**Zəfər bayramı ərəfəsi idi. 2020-ci ildə Azərbaycan Ordusunun Qarabağda erməni işğalçıları üzərində qazandığı qələbənin şərəfinə Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 6 nömrəli filialının təşkil etdiyi "Zəfər sənindir, Azərbaycan!" adlı tədbirə dəvət olunmuşdum.**



Sevinc və fərəh dolu çıxışlar başa çatandan sonra meydan musiqiçilərə verildi. Zəfər bayramının ruhuna uyğun tərtib olunmuş səhnəyə çıxan musiqiçilər qəhrəmanlığı, vətənpərvərliyi və zəfəri tərənnüm edən mahnılar oxudular. Gənc müğənnilərdən birinin ifa etdiyi mahnı demək olar ki, bütün iştirakçıları sehirlədi. Onun səsi, ifa tərzi, səhnə mədəniyyəti hamıya xoş təsir bağışladı.

Tədbir başa çatandan sonra gənc müğənni ilə yaxından tanış oldum, onun ömür yolunu vərəqlədim. Öyrəndim ki, məlahətli səsi və ifa tərzi ilə tədbir iştirakçılarına xoş anlar yaşadan gənc müğənni Svetlana Quliyevadır. Onun valideynləri, doğmaları ermənilərin təzyiqi nəticəsində 1968-ci ildə Qərbi Azərbaycandan çıxıblar. Atası Müslüm Quliyev hərbçi olub. Uzun illər ordumuzun sıralarında xidmət edib.

Azərbaycanın dilbər guşəsi olan Şəki şəhərində dünyaya göz açan Svetlana hələ kiçik yaşlarından musiqiyə böyük həvəs göstərib. Tanrı ondan gözəlliyi ilə bərabər, məlahətli səsi də əsirgəməyib. Hələ orta məktəb illərində Svetlana keçirilən tədbirlərdə şeirlər deyib, mahnılar oxuyub. Bütün bunlar addım-addım onu musiqi dünyasına yaxınlaşdırıb. O günlərdə Svetlana arzulayırdı ki, gələcəkdə musiqinin sirlərinə dərindən yiyələnsin, tanınmış müğənni olsun, Azərbaycan musiqisini böyük səhnələrdə tərənnüm eləsin. Tamaşaçı alqışı, tamaşaçı sevgisi qazansın. Musiqini həyatının mənası bilən Svetlana ürəyində aşıb-daşan bu gözəl və sabahlara istiqamətlənmiş arzularına çatmaq üçün orta məktəbi bitirdikdən sonra sənədlərini Asəf Zeynallı adına Musiqi Kollecinə verib. İlk addımı onu uğura qovuşdurub. Biliyi, bacarığı Svetlananı ürəyində qövr edən arzularına çatdırıb. Kollecin vokal ixtisasına qəbul olub. Dosent Sevda Məmmədovadan vokal sənətinin sirlərini dərindən öyrənib. Uğurlara gedən çətin yollar onu qorxutmayıb. Yorulmadan daim öz üzərində çalışıb. Çalışqanlığı ona çox bilikləri öyrədib, musiqi dünyasının sirli qapılarını üzünə geniş açıb.

Çalışdıqca, öyrəndikcə Svetlananın musiqiyə olan sevgisi daha da artıb. Bu sevgi bir neçə ildən sonra onun əlindən tutub Azərbaycan Milli Konservatoriyasına gətirib. İmtahanlardan uğurla keçən Svetlana Quliyeva Konservatoriyaya qəbul olub. Hazırda Svetlana Xalq artisti Azər Zeynalovun rəhbərliyi altında milli vokal sənətinin sirlərini həvəslə mənimsəyir.

Gənc müğənni əlamətdar günlərdə hərbi hissə və birləşmələrdə zabit və əsgərlər qarşısında da çıxış edir. Könülləri telləndirən, qəlbləri riqqətə gətirən səsi ilə qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən mahnılar oxuyur. Bənzərsiz ifaları ilə hərbçi tamaşaçılarının da sevgisini qazanır. Nümunəvi çıxışlarına görə S.Quliyeva dəfələrlə hərbi hissə komandirləri tərəfindən fəxri fərmanlarla və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

- Vətənimizin müdafiəçiləri olan hərbçilər qarşısında çıxış etməkdən qürur duyuram, - deyə Svetlana Quliyeva sözə başladı. - Çünki Azərbaycan Ordusunun zabit və əsgərləri 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan və 44 gün davam edən Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq görstərdilər, xalqımıza qələbə sevinci yaşatdılar. Onların qarşısında çıxış edəndə xoş hisslər keçirirəm. Sanki dünyanı mənə verirlər. Başqa cür də ola bilməz. Mən mahnılarımı onlara minnətdalıq hissləri ilə oxuyuram.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə gənclərə böyük qayğı və diqqət göstərilir. Onların cəmiyyətdə aparıcı qüvvə olması və inkişafı üçün daim hərtərəfli şərait yaradılır. İnanırıq ki, bu qayğı və diqqətdən bəhrələnən, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Badamdar mədəniyyət evində mədəni-kütləvi tədbirlərin təşkilatçısı vəzifəsində çalışan gənc müğənni Svetlana Quliyeva həzin, məlahətli səsi ilə bundan sonra da böyük uğurlar qazanacaq. Bənzərsiz ifası ilə könülləri fəth edəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 26 noyabr, №258.- S.7.